# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yeni layihəyə başlayıb

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) "Terror multikulturalizmə qarşı" adlı növbəti layihəyə start verib. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafına Dəstək Fondu və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) birgə dəstəyi ilə həyata keçiriləcək uzunmüddətli layihə çərçivəsində ölkəmizdə, eləcə də Avropa ölkələrində silsilə beynəlxalq elmi-praktik konfranslar, simpoziumlar və forumların keçirilməsi, televiziya proqramları, videoçarxlar və filmlərin çəkilməsi, kitablar, broşürlər, bülletenlər, tarixi sənədlərin xarici dillərdə nəşri nəzərdə tutulur.



BBMM-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi zaman-zaman erməni ekstremistləri tərəfindən Azərbaycan ərazisində yaşayan həmvətənlərimizə - müxtəlif etnik köklərə mənsub Azərbaycan xalqlarına qarşı törədilən terrorun tarixi, miqyası, acı nəticələri və bundan sonra bu terrorun qarşısının alınması istiqamətində birgə əməkdaşlığın perspektivləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmaqdır.

Alim və mütəxəssislərin iştirakı ilə BBMM-də keçirilən iclasda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev çıxış edərək layihəni mühüm siyasi-elmi aksiya kimi səciyyələndirib. O deyib: "Multikulturalizm asanlıqla əldə olunan bir dəyər deyil. Bunun üçün əsrlər lazım olur, sınaqlardan keçmək lazım gəlir. Əsrlərlə yaşı olan Azərbaycan multikulturalizminin formalaşma mərhələsində qarşılaşdığı maneələrdən biri erməni terrorudur. Erməni terroru dini və etnik müxtəlifliyi özündə ehtiva edən Azərbaycan multikulturalizminə ən böyük təhlükələrdən biridir. Əslində, bu gün Azərbaycanı narahat edə bilən heç bir erməni təxribatı yoxdur. Biz ermənilərin bütün təxribatlarına qarşı həmişə sözümüzü deyirik və deyəcəyik. Amma hər halda bəzi məsələlərdə adda-budda yox, məqsədyönlü şəkildə müxtəlif qurumlarla əl-ələ verərək birgə təşəbbüslə fəaliyyət göstərmək lazımdır".

"Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində bu yaxınlarda təşkil ediləcək "Erməni terroru və Azərbaycan" mövzusunda ilk beynəlxalq elmi-praktik konfransda ABŞ, Fransa, İran, Rusiya, Gürcüstan və Ermənistandan alim və mütəxəssislərin iştirakı gözlənilir.

Toplantıda çıxış edən AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov, DQİDK-nın sədr müavini Gündüz İsmayılov, DİDK-nın aparat rəhbərinin müavini Tahir Hacıyev, Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı Araz Qurbanov, tarixçi alim Güntəkin Nəcəfli erməni terroruna məruz qalan Azərbaycan xalqının həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından layihəni çox əhəmiyyətli təşəbbüs kimi dəyərləndiriblər.

Toplantıda "Terror multikulturalizmə qarşı" layihəsinin icrası ilə bağlı daimi təşkilat komitəsi yaradılıb.